## Muğam ifaçıları

# Səslər içindən seçilən səs

Muğam və xalq mahnılarımız çox ovsunlu bir aləmdir. Dibi görünməyən bu dəryaya hər kəs baş vura bilməz. Muğam ifaçısı hər şeydən əvvəl qəlbəyatımlı, şirin, yanıqlı səsə, zilə qalxan hünərli avaza, bəmə enən sehirli nəfəsə sahibliyi ilə bərabər, zəhmətkeş, cəfakeş olmalıdır. Muğama üz tutan çox olub. Amma yaddaşlarda, məhz bu sənətin ən mahir ifaçıları iz salıblar. Azərbaycan muğamlarını oxuyan xanəndələr məhz öz yaradıcı fəaliyyətləri, qeyri-adi ifaları ilə milli musiqimizin inkişafında, şöhrətlənməsində, yaşamasında misilsiz xidmətləri olan sənətkarlar kimi qiymətləndirilib, dəyərləndirilib, xatirəsi əziz tutulub. Onlardan yadigar qalan ifalar həmişə nümunə göstərilib.

Deyirlər ki, əslində xalqımızın dünya mədəniyyətinə bağışladığı birinci möcüzə məhz onun muğamlarıdır. YUNESKO-nun Azərbaycan muğamlarını bəşəriyyətin şifahi və qeyri-maddi irs siyahısına salması da bu mədəni sərvətimizin kamilliyindən, zənginliyindən, bənzərsizliyindən xəbər verir.

Muğamın sehrinə düşüb onun odunda qovrulan xanəndələrimiz çox olub. Bu ənənə indi də ləyaqətlə davam etdirilir. Qəlbi riqqətə gətirən, varlığı yaşamağa, yaratmağa səsləyən bu möhtəşəm sənətin vurğunlarından biri də xalq artisti, ömrünün 65-ci payızını tamamlayan Baba Mahmudoğludur.

Səsinin çalarlarındakı, zəngulələrinin ahəngindəki coşğunluq sanki orta əsrlərin döyüş meydanlarında mənəmlik edən qılınc və qalxan sədalarının qovuşuğundan yaranıb. Bəlkə də bu qədimliyin və qəribəliyin nəticəsidir ki, Baba Mahmudoğlunun səsinin bağışladığı təsir müxtəlif pərdələrlə açılır. Adamın gözləri önündə qeyri-adi mənzərələr yaranır, təbiətin valehedici hüsnü görünür, Koroğlu dəlilərinin harayı eşidilir, bomboz səhralarda sərgərdan dolaşan pəjmürdə Məcnunun naləsinə əriyirsən, Aşıq Qəribin könül göynədən, ruhu dilə gətirən sazının tufanına kövrəlirsən.

Gözəl, məlahətli nəfəsə malik xanəndələrimizin içindən məhz öz səsinin şahə qalxan zili, şaqraqlığı ilə seçilən Baba Mahmudoğlu təqdim etdiyi hər bir muğamı, xalq mahnısını, bəstəkar nəğməsini xüsusi təravətlə və ürəkdən oxuyur. Sənət dostlarının fikridir ki, o, milli musiqiyə bütün varlığı ilə bağlıdır. Baba Mahmudoğlu Azərbaycan muğamlarını ürəkdən sevən və ifa edən müqtədir sənətkarlarımızdan biridir.

Adətən, muğam ifaçılarının əksəriyyəti gözəl Qarabağın yetişdirdiyi adamlar olub. Bu sırada çox az-az sənətkar tapılar ki, onlar yurdumuzun başqa bölgələrində dünyaya gəliblər. Məhz Baba Mahmudoğlu da Qarabağ xanəndələrinin ifa etdiyi muğamların sevə-sevə dinləndiyi məkan - Ağstafa rayonunun Muğanlı kəndindəndir. Adətən, bu bölgədə saza, aşıq sənətinə məhəbbət daha üstünlük təşkil edir. Saf bulaqlardan su içən, dağların gözəlliyinə, çəmənlərin çiçəklərinə vurğun kəsilən Baba Mahmudoğlu elə körpəlikdən muğam üstündə köklənib. Özünün dediklərindən: "Ürəyimdə əzəl gündən oxumağa böyük, qarşısıalınmaz həvəs olub. Mənə elə gəlirdi ki, əsən küləklərin səsində, yarpaqların pıçıltısında, bulaqların zümzüməsində muğamın sehirli pərdələri açılır". İçindəki bu sənət yanğısı onu Bakıya gətirib. Amma qəribədir



ki, ali təhsil almaq üçün Azərbaycan Sənaye İnstitutuna daxil olub.

1959-cu ildə respublikada ali məktəblərdə yaradılmış bədii özfəaliyyət kollektivlərinin müsabiqəsi keçirilirdi. O zaman Baba da oxudu institutun özfəaliyyət dərnəyində məşğul olurdu. Keçirilən həmin müsabiqədə Baba Mahmudoğlu birinci yeri tutub. O həmin tədbirdə "Heyratı" muğamını ifa edib. İlk dəfə böyük Bülbülü də orada görüb. Aldığı pul mükafatını isə ona unudulmaz bəstəkarımız Qəmbər Hüseynli təqdim edib. İnstitutda oxuduğu illərdə tələbə dostlarının təkidi ilə Asəf Zeynallı adına musiqi məktəbinə gedərək Seyid Şuşinski ilə görüşüb. Gənci maraqla dinləyən unuldulmaz ustad 4 il Baba Mahmudoğluna muğamın sirlərini öyədib. Hələ tələbəlik illərində müxtəlif konsert tədbirlərində, müsabiqələrdə, mərasimlərdə iştirak edən, uğurlar qazanan Baba Mahmudoğlu institutu bitirdikdən sonra bir müddət indiki Səttarxan adına zavodda əmək fəaliyyətinə başlayıb. Əlləri başqa işin qulpundan yapışsa da, fikri ancaq oxumaqda, ifaçılıqda, musiqidə olub.

Günlərin birində qəzetdə oxuyur ki, Opera və Balet Teatrında Məcnun obrazını yaratmaq üçün musabiqə elan edilib. Sanki zülmətə ay doğmuşdur. O, ürək döyüntüsü ilə həmin müsabiqəyə qoşulur. 153 nəfərin qatıldığı həmin sınaq tədbirinin münsiflər heyətində görkəmli tarzən Bəhram Mansurov, maestro Niyazi, rejissor Şəmsi Bədəlbəyli və o dövrün tanınmış digər sənətkarları iştirak edirdilər. Gənc muğam həvəskarının bir-birinin dalınca ifa etdiyi muğamlar münsiflər heyətinin çox xoşuna gəlib. Elə oradaca dərhal qərar veriblər ki, cavan oğlanı Məcnun obrazına hazırlasınlar. Baba Mahmudoğlu isə sıxıla-sıxıla xahiş edib: "Mənə kiçik rollar verin, hazırlayım". Beləliklə zavodda işləyə-işləyə teatr səhnəsində öz arzularına qovuşan Baba Mahmudoğlu ilk dəfə tamaşaçılara "Leyli və Məcnun" operasından Zeydi təqdim etdi. Cavan mühəndisin sonralar həmin operada oynadığı İbn Səlam və "Əsli Kərəm"dəki Sofi, Osmanlı, "Aşıq Qərib"də Aşıq Səlim obrazları böyük uğurlara gedən ilk işartılar oldu. Lakin sonralar bir müddət bu sahədə fasilə yaranıb.

1969-cu ildə respublikada "Muğam - 69" müsabiqəsi keçirilirdi. Münsiflər heyətinin sədri ustad Xan Şuşinski, üzvləri isə görkəmli xanəndələrdən Sara Qədimova, Sahib Şükurov və başqaları idi.Yenidən arzularının işığında bu tədbirə gələn Baba Mahmudoğlu "Qatar" muğamını oxuyub. Müsabiqədə 2-ci mükafata layiq görülüb.

Tale elə gətirdi ki, Opera və Balet Teatrında yenidən "Leyli və Məcnun"u tamaşaya hazırlayanda Məcnun rolu üzərində axtarışlar başladı. Leyli rolunun ifaçısı, aktrisa Nəzakət Məmmədova vaxtilə Baba Mirzəyevin istedadlı gənc olduğunu rejissora bildirib. Beləliklə də o, ilk dəfə 1969-cu ildə "Məcnun obrazını tamaşaçılara təqdim etdi. Onun bu tamaşadakı böyük müvəffəqiyyəti yenidən taleyinə işıq saçıb.Tərəddüd etmədən Baba Mirzəyevi könlünün can atdığı teatrda işə götürdülər. O vaxtdan indiyə qədər həmin sənət məbədində çalışan Baba Mahmudoğlunun nailiyyətləri, uğurları çox olub. Sinəsindən gələn zəngulələri təkcə Azərbaycan teatrının səhnəsindən, ekran-efirindən deyil, dünyanın müxtəlif və möhtəşəm konsert salonlarından eşidilməkdədir.

Ona yaxın operada həm baş, həm də müxtəlif obrazları yaradan Baba Mahmudoğlunun Azərbaycan radio və televiziyasının fondunda 500-ə yaxın oxuduğu xalq mahnısı var. Mədəniyyətimizin inkişafında göstərdiyi xidmətlərə görə 1982-ci ildə əməkdar, 1993-cü ildə isə xalq artisti fəxri adlarına layiq görülüb. Prezident təqaüdçüsüdür. Yaratdığı "Dastan", "Xəzinə" folklor ansambllarının fəaliyyəti tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır. Unudulmaz bəstəkar Qara Qarayev vaxtilə Baba Mahmudoğlu haqqında demişdir: "Baba Mirzəyevin böyük vokalist və aktyorluq məharəti məni sevindirdi. Düşünürəm ki, klassik xanəndələrimizin gələcək nəsilləri üçün Baba Mirzəyev yeni bir cığır açmışdır". Bu etimadın təsdiqi kimi dahi bəstəkar Fikrət Əmirovun da fikri maraqlıdır: "Mən Baba Mirzəyevin böyük musiqi məharətini kəşf etdim".

Ömürlərini Azərbaycan musiqisinin tərəqqisinə bağlamış bu dahi sənətkarlar, təbii ki, öz rəylərində səhv etməmişlər. Onların gənc yaşında dəyərləndirdikləri, inandıqları, gələcəyinə böyük ümidlə baxdıqları Baba Mahmudoğlu bu gün şöhrətin zirvəsində məlahətli səsi ilə könülləri fəth edən sevimli xanəndələrimizdən biridir.

*Flora XƏLİLZADƏ, "Azərbaycan"*

## Anım

# Yadigar məktub



Həyatda elə insanlar olur ki, dünyalarını dəyişəndən sonra da unudulmurlar, hörmətlə xatırlanırlar. Onlardan biri də şair-publisist, yüzlərlə məqalənin, neçə-neçə şeir, nəsr kitabının müəllifi Tofiq Mahmuddur. O, həddən artıq işgüzar insan idi.

Yaxın günlərdə mərhumun oğlu İlqarla rastlaşdıq. O, tanınan rəssamdır. "Göyərçin" jurnalının məsul katibidir. Söhbət Tofiq müəllimdən düşəndə İlqar dedi: "Atamdan yadigar qalan bir məktub var, istəyirəm onu dərc etdirəm". Məktubu alıb oxuduq. Onu oxucuların diqqətinə çatdırırıq.

"Mən Tofiq Mahmud oğlu Mehdiyev 1931-ci il noyabrın 5-də Naxçıvan MR-in Şahbuz rayonunda anadan olmuşam. Orta təhsilimi Bakıda 31 saylı orta məktəbdə alıb, 1949-cu ildə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunmuşam. Atam ziyalı idi. Zəmanəsində tanınan "Kommunist" qəzetində işləyirdi. Lazım gələndə, çox şeyi ondan öyrənirdim. Lakin tələbəlik illəri mənə yeni bir həyat, dünyagörüşü bəxş etdi. 1954-cü ildə universiteti bitirib Mədəniyyət Nazirliyinin mədəni-maarif idarəsində metodist işlədim. Meyilim, istəyim isə oradan çox-çox uzaq idi. Şeir yazmağa başladım. İlk şeirim 1953-cü ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olundu.

O vaxtlar poeziya mənim üçün, sözün həqiqi mənasında, möcüzə idi. Demək olar, boş vaxtım yox idi. Gecə-gündüz Azərbaycan və dünya şairlərinin yaradıcılığını mütaliə edirdim. Ən çox Henrix Heynenin şeirlərinə valeh olmuşdum. Tələbəlik illərindən başlayaraq şair və yazıçılarımızla, xüsusən Səməd Vurğun, Rəsul Rza, Süleyman Rəhimov, Mehdi Hüseyn, Əli Vəliyev, İslam Səfərli ilə tez-tez görüşər, onlardan məsləhətlər alar, tövsiyələr eşidərdim. 1954-cü ildə Yazıçılar İttifaqında (indi Birlikdir) "Gənclər günü" münasibəti ilə keçirilən tədbirdə oxuduğum iki şeirimdən birini böyük şairimiz Səməd Vurğun bəyəndi.

Mətbuatda işləmək həvəsim günbəgün artırdı. Axır ki, arzuma yetişdim. "Azərbaycan müəllimi" qəzetində işə düzəldim. O zamanlar bu qəzet, demək olar ki, əl-əl gəzirdi. Oxucular redaksiyaya gəlir, yaxud da məktublar göndərib yazılarımıza münasibətlərini bildirirdilər. Bu cəhət başqa əməkdaşlar kimi, məni də operativliyə, həyatla, insanlarla sıx əlaqə saxlamağa, onlarla ünsiyyətdə olmağa öyrətdi. Günlərin birində qismətim məni gətirib çıxardı uşaqlar üçün çap olunan "Göyərçin" jurnalına. Dərgi həyat sevgimə çevrildi. Lakin möcüzə hesab etdiyim poeziyadan ayrılmaq, kənar düşmək heç ağlıma belə gəlmirdi. Uşaq ədəbiyyatına, nəsr yaradıcılığına qədərsiz meyil göstərməyim poeziyadan soyumağım, ondan uzaqlaşmağım demək deyildi. Tərəddüdlər, əziyyət çəksəm də, şeir dünyasından, poeziyadan uzaqlaşmaq fikrinə düşsəm də, ondan qısa müddətə ayrılsam da, tam uzaqlaşa bilmirdim, qarşısı alınası, mümkün olmayan qüvvə məni şeir yazmağa vadar edirdi:

*...İnsan doğulanda doğulur bu səs,*
*İnsan yox olanda yox olur bu səs!*
*Yox olub çevrilir nur zirvəsinə,*
*Qanşır, qovuşur Yer kürəsinə!*

Öz həyatını, varlığını, səadətini peşəsinə qurban verən sənətkarlara məhəbbətim hansısa var-dövlətə, sərvətə tay tutulası deyil... Bu illər ərzində son qənaətim belə olub ki, şeir yazmaq qədər çətin heç nə yoxdur. Fikrimcə, həyatda ən ülvi nemət poeziyadır, onsuz yaşamaq solğun və mənasız görünərdi. Poeziyanı sevmək həm də həyatı, insanları sevmək deməkdir. Bir-birinin ardınca uşaqlara həsr etdiyim "Qızımın sualları", "Dağlar", "Utancaq oğlan", "Dibçək", "Qoz ağacı", "Bu işıqla qalacağam" şeir kitablarım çap olundu. "Yerə dağılan muncuqlar" və "Şən şeirlər" kitablarım Lenin komsomolu mükafatına layiq görüldü.

Uzun müddət Yazıçılar İttifaqı Uşaq və gənclər ədəbiyyatı bölməsinin ictimai əsaslarla sədri, 1988-ci ildən isə respublika Uşaq Fondunun Bakı şöbəsinin sədri vəzifələrində işləmişəm. 1990-cı ildən başlayaraq ağır günlər, sarsıntılı anlar yaşadım. 20 Yanvar faciəsi - sovet ordusunun insanlara qənim kəsilməsi, onları vəhşiliklə öldürməsi ürəyimə dərd saldı. Daha şeir yazmaq həvəsim də qalmamışdı. Hər gün Şəhidlər xiyabanına gedirdim. Dərdim, əzabım günbəgün artırdı. Qarabağ uğrunda döyüşlərdə həlak olan şəhidlərin "qırmızı tabut"larını görəndə elə bil gözlərimə iynə batırırdılar. Ara-sıra publisistik qeydlər yazırdım ki, bəlkə emosiyam azaldı. Amma...

1990-cı illərin əvvəllərində müsibətli, dəhşətli anlar yaşayırdıq. Bir tərəfdən torpaqlarımız uğrunda qanlı döyüşlər gedirdi, digər tərəfdən isə ölkə daxilində çəkişmələr, didişmələr səngimək bilmirdi, anarxiya hökm sürürdü. 1993-cü ildə xalqın istəyi ilə Heydər Əliyev Bakıya - yenidən hakimiyyətə qayıtmasaydı, kim bilir, axırımız necə olacaqdı?! Doğrudur, ata-baba yurd yerlərimizin 20 faizi işğala məruz qaldı. Ancaq "qırmızı tabut"ların da sayı azaldı. Çünki atəşkəs haqqında müqavilə imzalandı. Milli Ordumuz, Silahlı Qüvvələr gücləndi..."

Məktubun daha nə ardı var, nə də tarixi. Lakin bu faktdır ki, Tofiq Mahmud 1997-ci il avqustun 4-də 66 yaşında qəfil dünyasını dəyişib. Qalan yadigarları - poemaları, povestləri, publisistik yazıları, şeirləri isə onun əziz xatirəsini yaddaşlarda yaşadır.

O, Azərbaycanın ilk professional rəssamı Bəhruz Kəngərliyə həsr etdiyi "Uzaqda ucalan dağlar" povestində yazıb: "Ölmək, bu işıqlı dünyaya həmişəlik əlvida demək, doğmaları, dost-tanışı ağlar, qəmli-qüssəli qoymaq ağır dərddir. Ancaq sən heç vaxt, heç vədə unudulmayacaqsan. Dönə-dönə anılıb, yad olunacaqsan". Bu fikri bütövlükdə mərhum Tofiq Mahmudun özünə də şamil etmək mümkündür.

*Telman MEHDİXANLI, "Azərbaycan"*

## XƏBƏRİNİZ VAR?..

*Bariz ƏSƏDOV*

sizi görüb-eşidib-oxuyub bildiklərindən agah edir

# İslam Konfransı Təşkilatı 57 müsəlman ölkəsini birləşdirir

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İslam Konfransı Təşkilatına (İKT) üzv olan ölkələrin xarici işlər nazirlərinin 30-cu konfransının və turizm nazirlərinin 5-ci konfransının Bakıda keçirilməsi haqqında bu il avqustun 11-də və sentyabrın 15-də müvafiq sərəncamlar imzalayıb, həmin tədbirlərin keçiril-***

## Beynəlxalq aləm: hadisələr, faktlar

### Paris ətrafında iğtişaşlar 20 şəhəri əhatə edir

Ötən həftə Paris ətrafında başlamış kütləvi iğtişaşlar artıq 20 şəhəri əhatə edir. Polis iğtişaş zonalarına əlavə jandarm qüvvələri göndərmək barədə qərar qəbul etmişdir.

### Qırğızıstanlı məhbuslar silahlarını təhvil verəcəklər



Qırğızıstanda qiyam etmiş məhbuslar tərksilah olmağa razılıq vermişlər. Qırğızıstan Ədliyyə Nazirliyi Cəzaların İcrası üzrə Baş İdarəsinin rəhbərliyinin müraciətindən sonra qapalı həbsxanalarda saxlanılan məhbuslar qadağan olunmuş əşyaları, o cümlədən kəsici və deşici əşyaları, habelə telefonları təhvil verməyə razılaşmışlar.

İdarənin rəisi Kapar Mukeyev bildirmişdir ki, təkcə 8 saylı